# Azərbaycan Respublikasının Prezidenti tərəfindən dövlət idarəçiliyi istiqamətində islahatlar aparılır

Ölkə başçısı həmişə Azərbaycan dövlətinin daha da möhkəmlənməsinə, qüdrətlənməsinə, ölkəmizin unikal inkişaf modelinin dünyada tanınmasına töhfə verməyə çalışanların fəaliyyətini yüksək dəyərləndirib.

Cənab İlham Əliyev çıxışlarında ölkədə korrupsiyaya və korrupsionerlərə qarşı amansız mübarizə aparılacağı, dövlətin, xalqın maraqlarına zidd addım atan məmurların cəzalandırılacağı haqda dəfələrlə sərt xəbərdarlıqlar edib.

Prezidentin bu məsələyə dəfələrlə toxunması korrupsiyaya qarşı qəti mövqeyinin ifadəsidir. Lakin ölkə başçısının xəbərdarlıqlarına baxmayaraq bəzi vəzifəli şəxslər öz vəzifələrinə çox məsuliyyətsiz yanaşdıqlarına görə özləri və tabeliklərində olan şəxslər korrupsiya faktları ilə məsuliyyətə cəlb edilib.

Xüsusilə də koronavirus pandemiyası dövründə vətəndaşa ayrılan dövlət dəstəyinin mənimsənilməsi qəbuledilməz haldır. Bu məsələlər ölkə başçısının hər zaman diqqət mərkəzindədir. Azərbaycan Respublikası Baş Prokuroru vəzifəsinə Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisinin təyin edilməsi də Azərbaycanda korrupsiyaya qarşı aparılan ciddi mübarizənin təzahürüdür.



Bu gün həyata keçirilən kadr islahatları məhz peşəkarlığın təminatına, eyni zamanda, ölkənin dayanıqlı inkişafı üçün yüksək ixtisaslı mütəxəssislərin cəlb olunmasına xidmət edir. Prezident İlham Əliyevin bütün sahələri əhatə edən, yeniləşmə, yeni yanaşma, müasir şəraitə uyğunlaşma kimi dəyərləndirdiyi inqilabi islahatlar xalq tərəfindən güclü dəstəklənir.

Azərbaycan Prezidentinin son zamanlar etdiyi çıxışların, verdiyi bəyanatların, gördüyü tədbirlərin xarakteri də təsdiq edir ki, rüşvətxor və korrupsioner məmurlarla mübarizə müvəqqəti yox, ardıcıl xarakter daşıyır. Buna görə də ölkədə yeni dövrün başlandığını hər bir məmur nəzərdən keçirib, fəaliyyətində konkret korrektələr aparmalıdır.

Ölkə prezidentinin yüksək vəzifə verib irəli çəkdiyi, etibar etdiyi şəxslərin bu cür yanlış hərəkətlərinə haqq qazandırmaq qeyri-mümkündür və çox haqlı olaraq Prezident bu cür xəyanətkarları bağışlamır və bağışlamayacaqdır!

Bu istiqamətdə Prezidentin həyata keçirdiyi islahatlar, verdiyi tövsiyə və tapşırıqlar rayon icra hakimiyyəti tərəfindən rayonda fəaliyyət göstərən idarə, müəssisə və təşkilatlara, inzibati ərazi nümayəndəliklərinə, bələdiyyələrə onlayn formada göndərilmiş və bir daha bu tapşırıqlara ciddi şəkildə riayət edilməsi bildirilmişdir.

**"Qəbələ"**

# Prezident İlham Əliyevin təşəbbüsü ilə keçirilən Qoşulmama Hərəkatı Təmas Qrupunun Zirvə görüşü qlobal pandemiya ilə mübarizədə beynəlxalq həmrəyliyin daha da möhkəmlənməsinə xidmət edir

(Əvvəli 1-ci səhifədə).

da möhkəmləndirilməsi yönündə yeni uğur və önəmli addım idi. Türk Şurası dünya miqyasında ilk beynəlxalq təşkilatdır ki, dövlət başçıları səviyyəsində koronavirus pandemiyasına həsr olunmuş Zirvə görüşünü keçirib. Görülən işlər nəticəsində bu gün Türk Şurası çərçivəsində 3 istiqamət üzrə - səhiyyə, nəqliyyat və iqtisadiyyat sahəsində əməkdaşlıq münasibətləri yaranıb. Dünyanı bürüyən pandemiya ilə mübarizədə türk dövlətlərinin təkcə bir-birilərinə yox, həm də digər ölkələrə kömək etməsi, birlik, həmrəylik nümayiş etdirməsi daha böyük dəyərlərə sahib olduqlarını nümayiş etdirdi. Bu təşəbbüsün Azərbaycandan gəlməsi isə onun hüdudlarından uzaqlarda yaşayan hər bir soydaşımızı qürurlandırır.

Hər iki zirvə göstərdi ki, şura sədri olaraq Azərbaycan Prezidenti İlham Əliyev fövqəladə şəraitdə də öz vəzifəsini lazımınca yerinə yetirir və bu bütün dünya üçün örnək ola biləcək birlik və eyni zamanda etibarlı əməkdaşlıq nümunəsidir.

COVİD-19-a cavab olaraq Qoşulmama Hərəkatının Təmas Qrupunun onlayn səviyyəli zirvə görüşündə 18 bənddən ibarət bəyannamə qəbul edilib. Sənəddə hərəkat üzvlərinin müxtəlif sahələr üzrə bir-birinə dəstəyi öz əksini tapıb. Bütün bunlar bir daha təsdiq edir ki, Azərbaycan Prezidentinin növbəti qlobal təşəbbüsü pandemiya ilə mübarizədə Qoşulmama Hərəkatına üzv dövlətlər arasındakı əməkdalığı daha da dərinləşdirəcəkdir.

Prezident İlham Əliyevin təşəbbüsü ilə keçirilən Zirvə görüşü onun əsas qayəsinin qlobal pandemiya ilə mübarizə məqsədilə beynəlxalq həmrəyliyi daha da möhkəmləndirmək, dünya dövlətlərini bu məqsdlə birliyə dəvət etmək bəşəriyyəti bu dəhşətli bəladan xilas etmək üçün onları bir araya gətirməkdə olduğunun, habelə Azərbaycanın dünya miqyasında nüfuzunun daim artdığının göstəricisidir.

**"Qəbələ"**

# Dövlətimizin iqtisadi və sosial dəstək proqramı böhrandan çıxışa yönəlib

2019-cu ilin dekabr ayında Çində aşkar edilmiş koronovirus dəhşətinin fəsadları davam edir. Ümumdünya Səhiyyə Təşkilatı bu ilin mart ayında çox böyük surətlə yayılması davam edən bu bəlanı pandemiya elan etmişdir. Bu bəşəri bəla dünyanın ən inkişaf etmiş ABŞ, Almaniya, İngiltərə, Fransa, İtaliya və sair kimi dövlətlərini belə lərziyə salmışdır. Ən yüksək zirvəyə qalxdığını zənn etdiyimiz dünya tibb elmi də koronovirusun-bu görünməz düşmənin qarşısında hələlik necə deyərlər yalın əllə vuruşur. Belə ki, bu qorxulu düşməni birdəfəlik məğlub edəcək silah fədakarlıqla, həyatları bahasına bu bəlaya qarşı vuruşan tibb işçilərinin əlində mövcud deyil. Bir sözlə bütün dünya görünməz düşmənlə qeyri-bərabər müharibədədir.

Belə bir zamanda ölkə Prezidenti İlham Əliyev başda olmaqla Azərbaycan dövlətinin koronovirusun törətdiyi fəsadlara qarşı apardığı mübarizə tədbirləri Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən yüksək qiymətləndirilir. Pandemiyanın törətdiyi fəsadlarda daha az itki ilə çıxmaq üçün ölkə başçısı tərəfindən ardıcıl tədbirlər həyata keçirilir.

Qeyd edək ki, pandemiya təkcə insanların sağlamlığı, həyatı üçün böyük təhlükə törətməklə kifayətlənmir. Pandemiya ilə əlaqədar elan edilmiş karantin insanların iş yerlərini itirməsinə, rifah halının aşağı düşməsinə səbəb olur.

Buna görə də Prezident İlham Əliyev bu çətin dövrdə ölkədə makroiqtisadi sabitliyin qorunması və əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində ciddi addımlar atır. Ölkə başçısının rəhbərliyilə hazırlanan dövlət dəstəyi proqramları



bu prosesin tərkib hissəsidir. 2,5 milyard manat həcmində olan bu sosial proqram 1 milyon 900 min vətəndaşı əhatə edir.

Pandemiyanın ölkədə məşğulluğa, sosial sahəyə vurduğu zərərin aradan qaldırılması üçün Prezident İlham Əliyevin tapşırığı ilə 1 milyard manat vəsait ayrılıb.

Sosial sahədə davamlılığın qorunması üçün ümumilikdə istifadə olunacaq 394 milyon manatın 100 milyon manatı dövlət büdcəsindən, 203 milyon manatı Dövlət Sosial Müdafiə Fondundan, 91 milyon manatı isə işsizlikdən sığorta fondundan ayrılır.

Bundan başqa proqramda aztəminatlı ailələrin üzvü olan tələbələrin 2020-ci il təhsil haqqının ödənilməsi üçün büdcədən 40 milyon manat, aprel-may ayları üçün elektrik enerjisi ilə əlaqədar tətbiq olunan əlavə limit üçün 10 milyon manat vəsait ayrılmışdır.

Ölkə başçısının rəhbərliyi ilə təqdim olunan sosial paketlər iqtisadi sahəyə müsbət təsir göstərməklə yanaşı əhalinin həssas təbəqəsinin böhrandan qorunmasını da təmin edəcəkdir.

**"Qəbələ"**